AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYI
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

ÜLKƏR BAYRAM QIZI YUSİFOVA

# FƏRDİ HÜQUQİ AKTLARIN HÜQUQİ TƏBİƏTİ VƏ NÖVLƏRİ

**İXTISAS: 5606.01 – "Dövlət və hüquq nəzəriyyəsi və tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

BAKI – 2017

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Dövlət və hüquq nəzəriyyəsi və tarixi" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Azərbaycan MEA-nın müxbir üzvü, Azərbaycan Pespublikasının Əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor M.F. MƏLIKOVA**

**Rəsmi opponentlər:** **hüquq üzrə elmlər doktoru, professor N.H.Cəfərli**

**hüquq üzrə fəlsəfə doktoru D.M.Məmmədova**

**Aparıcı təşkilat:** **Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrası**

Dissertasiya işinin müdafiəsi "_01__" ____07___ 2017-ci il tarixdə saat "___" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "_________" 2017-ci ildə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi,**
**hüquq üzrə fəlsəfə doktoru, dosent:** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Dissertasiya işinin aktuallığı.** Respublikamızda demokratik hüquqi dövlət quruculuğu yeni normativ hüquqi bazanın yaradılması ilə yanaşı, fərdi hüquqi aktların hazırlanmasının və qəbulunun elmi əsaslar üzərində qurulması, bu məsələyə dair pozitiv xarici təcrübənin tətbiqi üçün geniş imkanlar yaratmışdır. Azərbaycan Respublikasında fərdi hüquqi aktların əsasən əmr, sərəncam və qərar formalarından daha geniş istifadə olunmasına baxmayaraq cari qanunvericiliyin inkişafı, habelə hüquq tətbiqetmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə digər növ fərdi hüquqi aktların da hazırlanması, qəbulu və dərci ilə bağlı məsələlərin dərindən araşdırılması əhəmiyyətli surətdə aktualdır. Şübhəsiz, qanunculuğun və hüquq qaydasının möhkəmləndirilməsi, ictimai münasibətlərin inkişafı şəraitində normativ hüquqi aktların təsiri həllediciḍir. Məhz bu səbəbdən normativ hüquqi aktların qəbulu və realizəsi ilə əlaqədar məsələlərə ənənəvi olaraq elmi doktrinada daha geniş yer verilir. Bu onunla izah olunur ki, hər hansı ölkədə təkmil fərdi hüquqi aktların qəbul edilməməsi mühitində qanunların və digər normativ hüquqi aktların səmərəli realizəsi  xeyli çətinləşir. Bundan əlavə, nəzərə almaq lazımdır ki, icra və məhkəmə hakimiyyəti orqanları öz gündəlik fəaliyyətini əsasən bu növ hüquqi aktlar əsasında həyata keçirirlər. Belə ki, fərdi hüquqi aktların ayrıca bir elmi araşdırmanın obyektinə çevrilməsi müasir dövrün tələbləri ilə şərtlənir.

Nəhayət, qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə milli qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktların dəqiq növləri təyin edilir. Bu da məntiqi olaraq hər hansı fərdi hüquqi aktın qəbulu zamanı onun mətninə ümumməcburi hüquq normalarının daxil edilməsi təcrübəsinin yolverilməməzliyinə dəlalət edir. Bununla yanaşı, ölkəmizdə normativ hüquqi aktlar haqqında xüsusi konstitusiya qanununun olması bir şəraitdə qeyri-normativ (fərdi) hüquqi aktların hazırlanmasına, qəbuluna və dərcinə dair vahid elmi-nəzəri yanaşmanın olmaması, habelə cari qanunvericiliyin bu məsələyə dair məhdud sayda hüquqi müddəaların mövcudluğu aidiyyəti dövlət orqanlarının gündəlik fəaliyyətində obyektiv çətinliklərin yaranmasına səbəb olur. Belə ki, fərdi aktların hazırlanması, qəbulu və icrası ilə əlaqədar mühüm məsələlər cari qanunvericilik aktlarının tənzimlənməsindən kənarda qalır. Qanunvericilik sahəsində yalnız ayrı-ayrı inzibati və məhkəmə aktlarının mütləq forması, qəbul edilməsi qaydası təsbit edilir.

Müasir dövrdə hüquq doktrinasında hamılıqla qəbul edilmiş fərdi hüquqi aktın anlayışının olmaması səbəbindən onların müəyyənləşdirilməsi zamanı istifadə edilən terminologiyada dəqiqsizlik müşahidə edilir. Bununla yanaşı, fərdi hüquqi aktların hüquqi təbiəti məsələsi nisbətən zəif tədqiq olunmuş, onları xarakterizə edən əsas hüquqi xüsusiyyətlərin və əlamətlərin nəzərdən keçirilməsində kompleksli yanaşmaya yer verilməmiş, fərdi hüquqi aktların hazırlanmasına və formasına münasibətdə konstitusiya qanunvericiliyinin tələbləri dəqiqləşdirilməmişdir. Belə bir vəziyyətin davam etməsi hüquqi islahatların sürətlə həyata keçirilməsinə xələl gətirə bilər. Çünki hüquqi tənzimləmə mexanizmində normativ hüquqi aktlarla yanaşı, fərdi hüquqi aktlar da vacib rola malikdirlər. Hüquqi tənzimləmə mexanizmində fərdi hüquqi aktların xüsusi təyinatı onların konkret şəraitə uyğun olaraq normativ hüquqi aktların göstərişlərinin tamamlamasında və konkretləşdirməsində ifadə olunur. Belə ki, hüquqi vəzifələrin könüllü surətdə icra edilməməsi hallarında məhkəmə aktı bunun məcburi icrasını, yəni dövlət məcburetmə tədbirlərinin tətbiqini təmin edən hüquqi vasitə kimi çıxış edir və s.

Bu baxımdan hal-hazırda hüquqi doktrinanın və praktikanın vacib məsələlərindən biri olan vahid fərdi hüquqi akt anlayışının və onunla bağlı problemlərin işlənilməsidir. Bu, hüquqi aktların səmərəli təsirini, tənzimlənən ictimai münasibətlərə mütənasib hüquqi təsirin göstərilməsini təmin etmək üçün lazımi imkanlar yarada bilər. Hal-hazırda hüquq elminin bəzi ənənəvi yanaşmaların, o cümlədən fərdi hüquqi aktlar probleminin yenidən dərk edilməsi, şübhəsiz, həmin məsələnin həlli, habelə keyfiyyətli hüquqi aktların qəbulu üçün zəmin yaradır.

Fərdi hüquqi aktlar problemi bir çox hüquqşünas alimlərin (M.N.Aniskeviç, V.A.Vlasenko, N.N.Voplenko, İ.V.Dementyev, V.V.Cura, S.K.Zaqaynova, D.İ.Zdunova, T.V.Kaşanina, S.A.Kuliniç, İ.A.Minnikes, N.Y.Molodkin, D.S.Semikin, O.Q.Strokova, A.Q.Tikovenko, Y.A.Tixomirov, A.A.Travkin, O.V.Şopina və s.) əsərlərində bilavasitə tədqiqat obyekti kimi çıxış edir.

Təəssüf ki, müasir dövlət və hüquq nəzəriyyəsində fərdi hüquqi aktların səciyyəvi əlamətlərini ətraflı şəkildə nəzərdən keçirilən tədqiqatlar azsaylıdır. Bu vacib problemin hərtərəfli, bütün cəhətlərini əhatə edən kompleks şəklində aparılan tədqiqat işləri yox dərəcəsindədir. Lakin cəmiyyətimizdə baş verən mütərəqqi dəyişikliklər bu problemə nəinki nəzəriyyəçilərin, həmçinin praktiki işçilərin böyük diqqətini tələb edir.

**Tədqiqatın elmi işlənmə dərəcəsi.** Müasir dövrdə ictimai münasibətlərin səmərəli tənzimlənməsi normativ təsiretmə vasitələri ilə yanaşı, fərdi tənzimetmə institutların da təkmilləşdirilməsini ehtiva edir. Hüququn bir güclü sosial tənzimləmə mexanizmi kimi təsiri yalnız ümumi normativ aktlar vasitəsilə deyil, habelə konkret həyati münasibətə dair qəbul olunan fərdi hüquqi aktda özünü büruzə verir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında yeni təkmil qanunların və qanunqüvvəli normativ hüquqi aktların qəbulu daxili normayaratma fəaliyyətinin nailiyyətlərini təsdiqləyən, xarici ölkələrin oxşar qanunlarını hətta üstələyən və milli gürur hissinə əsas verən artıq bir reallıqdır. Azərbaycan Respublikasının "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunun müddəaları bunun bariz nümunəsidir. Lakin müasir dövrdə milli hüquq sistemində aparılan genişmiqyaslı islahatlar çərçivəsində normativ hüquqi aktlarla yanaşı, müxtəlif növlü fərdi hüquqi aktların qəbulu da artmaqdadır. Təəssüflər olsun ki, normativ hüquqi aktlardan fərqli olaraq, fərdi hüquqi aktların elmi tədqiqatı müasir dövrdə tələb olunan səviyyədə aparılmır. Halbuki, həmin növ hüquqi aktlar vasitəsilə insan hüquq və azadlıqlarının pozulması hallarının qarşısını almağa yönəldilmişdir. Fərdi hüquqi aktların mahiyyətinin və cəmiyyətdə rolunun açıqlanmaması, onların potensial imkanlarından tam istifadə edilməməsi ölkəmizdə baş verən köklü islahatlara maneə yaradır. Bütün bunlar fərdi hüquqi aktlarla bağlı məsələlərin dərindən və sistemli şəkildə tədqiqini zəruri edir.

**Təhqiqatın məqsədi** fərdi hüquqi aktların sistemli şəkildə araşdırılmasından ibarətdir. Göstərilən məqsədə nail olmaq üçün aşağıdakıların həyata keçirilməsi tələb olunur:

- qeyd edilmiş mövzu üzrə müasir elmi yanaşmaları tədqiq etmək və ümumiləşdirmək, əsas diqqəti həll olunmamış və mübahisə doğuran məsələlərə yönəltmək;
- fərdi hüquqi aktların hüquqi mahiyyəti və əsas əlamətlərini təhlil etmək;
- fərdi hüquqi aktların növlərinə və xüsusiyyətlərinə dair məsələləri araşdırmaq;
- fərdi hüquqi aktların cəmiyyətdə, insan hüquq və azadlıqlarının müdafiəsinə dair daşıdığı funksiyaları açıqlamaq;
- normativ hüquqi aktlara və fərdi hüquqi aktlara xas olan fərqləndirici xüsusiyyətləri araşdırmaq;
- fərdi hüquqi aktların təkmilləşdirilməsinə yönəlmiş elmi tövsiyyələr hazırlamaq.

**Tədqiqatın nəzəri əsasını** fərdi hüquqi aktlar probleminə, onun təbiətinə, xüsusiyyətlərinə, növlərinə həsr olunmuş elmi əsərlər təşkil edir. Bununla yanaşı, dissertasiya işində sistemli təhlil əsasında milli qanunvericilik aktların müddəalarından geniş istifadə olunmuşdur.

**Tədqiqatın obyekti.** Dissertasiya işinin obyektini fərdi hüquqi aktların tədqiqi, onların səciyyəvi əlamətlərinin müəyyənləşdirilməsi, bunun əsasında dəqiq təsnifatının verilməsi, habelə müasir dövrdə fərdi hüquqi aktların milli hüquq sistemində əhəmiyyətinin artırılması məqsədilə konkret elmi-praktiki təkliflərin irəli sürülməsi təşkil edir.

**Tədqiqatın predmeti** qismində icra və məhkəmə hakimiyyəti orqanları tərəfindən qəbul olunan fərdi hüquqi aktların əlamətləri, strukturu və növləri çıxış edirlər.

**Tədqiqatın vəzifələri** aşağıdakılardan ibarətdir:

- fərdi hüquqi aktlara aid nəzəri məsələlərin araşdırılması;
- fərdi hüquqi aktların milli hüquq sistemində yerinin və rolunun müəyyənləşdirilməsi;
- fərdi hüquq aktların təsnifatının verilməsi;
- fərdi hüquqi aktlarının əsas əlamətlərinin və xüsusiyyətlərinin açıqlanması;
- fərdi hüquqi aktların sosial-hüquqi funksiyalarının təhlili;
- fərdi hüquqi aktların strukturunun təyin edilməsi və təkmilləşdirilməsi;
- fərdi hüquqi aktların hazırlanması, strukturu, rolu, ümumiyyətlə fəaliyyəti ilə bağlı praktiki tövsiyyələrin verilməsi;
- fərdi hüquqi aktlar ilə bağlı problemlərin Azərbaycan Respublikasının cari qanunvericiliyi və dövlət orqanları (icra və məhkəmə orqanlarının) praktikasının təhlili əsasında həll edilməsi.

**Tədqiqatın yeniliyi** ondan ibarətdir ki, müasir dövrdə milli hüquq sisteminin inkişafı ilə əlaqədar dissertasiya işində ilk dəfə olaraq sırf normativ hüquqi aktlarla yanaşı, fərdi hüquqi aktların da təkmilləşdirilməsinə təsir göstərən amillər qeyd edilmiş, vahid hüquqi akt anlayışının tərifi verilmiş, fərdi hüquqi aktların mahiyyəti və səciyyəvi əlamətləri təyin edilmiş, icra və məhkəmə orqanları tərəfindən qəbul olunan fərdi hüquqi aktların fərqli cəhətləri müəyyənləşdirilmiş və s. nəzəri və praktiki əhəmiyyət kəsb edən məsələlər öz həllini tapmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Hazırki dissertasiya tədqiqatının nəticələri əsasında müdafiəyə nəzəri və praktiki əhəmiyyət kəsb edən aşağıdakı müddəa və təkliflər çıxarılır:

1) Hüquqi akt ictimai münasibətlərin tənzimlənməsinə yönələn, özündə normativ və ya fərdi-müəyyən göstərişləri əks etdirən, müəyyən qaydada qəbul olunan səlahiyyətli hüquq subyektinin iradəsinin ifadə formasıdır.

2) Fərdi-hüquqi tənzimləmə ictimai münasibətlərə göstərilən elə hüquqi təsirdir ki, bu onun iştirakçılarının fərdi qaydada hüquq və vəzifələrinin yaranması, dəyişdirilməsi və ya xitamına səbəb olaraq normativ-hüquqi nizamasalmanı tamamlayır. Hüquqauyğun davranışın fərdi modeli yalnız konkret hüquq münasibətləri iştirakçıları üçün nəzərdə tutulur, dövlət məcburiyyəti ilə təmin olunur və akt-sənəd formasına malikdir.

3) Normativ hüquqi akt müəyyən qaydada dərc olunmuş akt olmaq etibarilə, qeyri-müəyyən şəxslər dairəsi üçün ümumməcburi davranış qaydalarını müəyyən edir, təkrar tətbiq edilə bilər, konkret hüquqi münasibətlərin yaranmasından və ya xitamından asılı olmayaraq qüvvədə olur.

4) Fərdi hüquqi akt hər bir halda müəyyən hüquqi nəticələr doğuran, aidiyyatı orqan və ya səlahiyyətli şəxs tərəfindən müvafiq qaydada qəbul edilən və bir sıra prosessual tələblərə cavab verən hüquqi faktdır.

5) Fərdi hüquqi aktın əsasında ilk növbədə müvafiq subyektin birtərəfli iradi hərəkəti durur; bütün fərdi hüquqi aktların ümumi məqsədi hüquq subyektlərinə tənzimləyici təsir göstərməkdən ibarət olduğu halda, hər hansı fərdi hüquqi aktın konkret məqsədi qismində konkret halın həlli və hüquq normasının realizəsinin təmin edilməsi çıxış edir.

6) Fərdi hüquqi aktların aşağıdakı növləri mövcuddur:

- normayaratma xarakterli fərdi aktlar (akt-presedentlər);
- hüquq və səlahiyyətlərin realizəsinə dair fərdi aktlar (birtərəfli aktlar, müqavilə-fərdi aktlar və hüquq tətbiqetmə aktları);
- şərh aktları.

7) Fərdi hüquqi aktların təkmilləşdirilməsi məqsədilə onların iki böyük qrupunun (icra hakimiyyəti orqanlarının fərdi hüquqi aktları və məhkəmə hakimiyyəti orqanlarının fərdi hüquqi aktları) fərqləndirilməsi zəruridir. Bir qayda olaraq, icra hakimiyyəti orqanlarının fərdi hüquqi aktları aidiyyəti orqanların (vəzifəli şəxslərin) gündəlik inzibati fəaliyyətinin həyata keçirilməsini ifadə edirlərsə, məhkəmə aktları konkret şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə qəbul olunan ədalət mühakiməsinin təzahürüdür.

8) Məhkəmə aktlarının yerinə yetirdiyi funksiya əsasında aşağıdakı növ məhkəmə aktları fərqləndirilir:

- əsas məhkəmə aktları (məhkəmə qərarı, qətnaməsi, hökmü);
- ayrı-ayrı məhkəmə hərəkətlərini təmin edən köməkçi məhkəmə aktları;
- məhkəmə icraatının prosedur məsələlərini, onun gedişatını təsbit edən əlavə məhkəmə aktları.

9) Hüquqi əhəmiyyətinə görə məhkəmə aktlarının aşağıdakı üç növə ayrılması məqsədəmüvafiq hesab edilir:

- məhkəmə normayaratma aktları;
- məhkəmə hüquq tətbiqetmə aktları;
- məhkəmə şərh aktları.

10) Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində ölkə məhkəmə orqanlarının qəbul etdiyi aktlar ("məhkəmə, məhkəmə aktlarını qətnamə, qərardad, qərar və əmr formasında qəbul edir") ümumi formada qeyd edildikdən sonra Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində sərəncamın ayrıca bir məhkəmə aktı kimi göstərilməsi hüquqi texnikanın qaydalarına ziddir. Bununla əlaqədar ya məhkəmə sərəncamının da Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 15.1-ci maddəsindəki siyahıya daxil edilməsi, ya da həmin maddənin dəyişdirilərək "mülki məhkəmə icraatı üzrə" sözləri ilə başlanılması təklif olunur.

11) Hər bir məhkəmə icraatı zamanı verilən ayrı-ayrı məhkəmə aktlarının məzmununa və formasına dair tələbləri əks etdirən xüsusi "Məhkəmə aktları barədə" Qanunun qəbul edilməsi vasitəsilə Azərbaycan Respublikasının bütün məhkəmə orqanlarında ayrı-ayrı növ məhkəmə aktlarının hazırlanması, qəbulu, strukturu və s. məsələlərin təmzimlənməsi məqsədəmüvafiqdir. Bu həmçinin məhkəmə aktları sisteminin, onların iyerarxik tabeçiliyinin təşkili zərurətindən irəli gəlir.

**Dissertasiyanın metodoloji əsasını** tədqiqat işinin aparılması zamanı dövlət və hüquq nəzəriyyəsi və sahəvi hüquq elmləri sahəsində tətbiq olunan ümumelmi və xüsusi metodlardan istifadə olunmuşdur. Fərdi hüquqi aktların xüsusiyyətlərini araşdırarkən konkret tarixilik, məntiqi tədqiqat və müqayisəli hüquqşünaslıq metodlarına daha çox müraciət olunmuşdur.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları Bakı Dövlət Universietinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasında müzakirə edilmiş, eləcə də müəllifin elmi tezislərində, elmi-

praktiki konfransının materiallarında və çap olunmuş məqalələrində öz əksini tapmışdır.

**Struktur** etibarilə dissertasiya giriş, doqquz yarımfəsli əhatə edən üç fəsildən, nəticə hissəsindən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiyanın giriş hissəsində** mövzunun aktuallığı, tədqiqat işinin məqsəd və vəzifələri göstərilir, müdafiəyə çıxarılan əsas müddəalar əks olunur, tədqiqatın metodologiyası, empirik bazası, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti qeyd edilir, tədqiqatın nəticələrinin aprobasiyası verilir.

**I fəsil "Fərdi hüquqi aktların nəzəri məsələləri"** adlanır və özündə dörd yarımfəsli birləşdirir.

**"Hüquqi aktların anlayışına dair nəzəri yanaşmalar və onların növləri"** adlanan **birinci yarımfəsildə** qeyd olunur ki, müasir dövrdə insanlar öz hüquq və azadlıqlarının hüquqi məzmunu barədə ilkin məlumatı əsasən müxtəlif növ hüquqi aktlar vasitəsilə əldə edirlər. Həmin hüquqi aktların tədqiqi və dəqiq tərifinin verilməsi zamanı ən əvvəl onların hüquqi ifadələrlə sənədləşdirilməsi və iradi xarakter daşımasını qeyd olunmalıdır. Belə ki, hüquqi akt insanın daxili psixi durumunu əks etdirən iradənin təzahürü olaraq onun hüquqi davranışına təsir göstərir. Bu mənada "hüquqi akt" anlayışının açıqlanması, onun əsas əlamətlərinin göstərilməsi, hüquqi aktların qəbulu ilə bağlı səlahiyyətli orqanların (vəzifəli şəxslərin) fəaliyyətinin hərtərəfli araşdırılması olduqca əhəmiyyətlidir.

Hüquqi akt həmişə hüquq subyektlərinə hüquqi təsir göstərən normativ və ya fərdi xarakterli məcburi göstərişlərdən ibarətdir. Bu halda hüquqi akt hüquqi qüvvəyə malikdir. Fərdi hüquqi akt hüquqi nizamasalma sahəsində fəaliyyət göstərən konkret hüquq subyektlərinə aid olur. Bu cür hüquqi akt birdəfəlik tətbiq üçün nəzərdə tutulur, əvvəlcədən müəyyən olunan şəxslərə aid olur və konkret hüquq və ya vəzifənin realizə edilməsi nəticəsində öz qüvvəsini itirir. Məsələn, sosial təminat orqanları tərəfindən konkret şəxsə təqaüdün təyin edilməsi, məhkəmənin borclu şəxs tərəfindən yaranmış borcun məcburi qaydada geri qaytarması haqqında qərarı. Fərdi hüquqi aktlar normativ hüquqi aktlarda əks olunan hüquq normalarının ümumi tələblərinin mühüm və zəruri realizə vasitəsidir. Onlar məcburi xarakter daşıyır, onların həyata keçirilməsi

səlahiyyətli dövlət orqanları vasitəsi ilə təmin edilir, lakin hüququn mənbəyi deyildir, çünki hüquq normasını əks etdirmir.

Hüquqi aktlardan fərqli olaraq normativ texniki sənədlər, tövsiyə xarakterli çoxsaylı aktlar (metodik göstərişlər, təlimatlar və s.) məcburi hüquqi qüvvəyə malik deyillər. Lakin onlar bu halda avtomatik olaraq qeyri-normativ aktlara çevrilmirlər, çünki qeyri-normativ akt müəyyən səbəbə görə konkret subyektə mütləq göstərişlər verir və qətnamə, qərar, əmr, göstəriş və s. formalarda tərtib olunur.

**İkinci yarımfəsil "Fərdi hüquqi akt ictimai münasibətlərin fərdi tənzimlənmə forması kimi"** adlanır. Burada qeyd olunur ki, dövlət hakimiyyəti normativ hüquqi aktlar vasitəsilə müəyyən hüquqi göstərişlərin realizəsinə təminat verir, səlahiyyətli dövlət orqanlarını zəruri təsir vasitələri ilə təmin edir. Lakin cəmiyyətin normal fəaliyyəti üçün onun heç də bütün sferalarına dövlətin nizamlayıcı müdaxiləsi tələb olunmur. Ona görə də ictimai münasibətlərin dövlət tərəfindən tənzimlənməsi prinsip etibarilə insan azadlığının məzmununu deyil, onun hüdudlarını müəyyən edir.İctimai münasibətlərin dövlət-hüquqi tənzimlənməsi normayaratmadan əlavə hüquq tətbiqetmə fəaliyyətini də əhatə edir. Bu zaman hüquqi tənzimləmə həm normativ, həm də fərdi-hüquqi təsir vasitələrin cəmi kimi çıxış edir.

İctimai münasibətlərin hüquq normaları ilə nizamlanması hökmran-tənzimləyici xarakterə malikdir və şəxsləşdirilmir. O, hər bir hüquq subyektinin əvvəlcədən müəyyənləşdirilən müvafiq hüquq qaydasına mütləq qaydada riayət etməsi əsasında qurulur. Fərdi-hüquqi tənzimləmə isə hüquqi göstərişin ayrıca bir hala təsiri ilə, konkret şəxs üçün nəzərdə tutulan müəyyən davranış forması ilə bağlıdır. Bununla əlaqədar olaraq konkret subyektlər üçün onların hüquqları, vəzifələri və s. müəyyən edilir. Lakin, müvafiq hüquqi təzahürün dəqiq təhlili onun digər xüsusiyyətlərini də aşkarlamağa imkan verir. Belə ki, fərdi-hüquqi tənzimləməni ilk növbədə ayrı-ayrı hüquq subyektlərinin aktivliyi kimi başa düşmək lazımdır. Onun vasitəsilə hüquq subyektləri maraqlarını, tələbatlarını, iradəsini ifadə etməklə münasib qərarlar verirlər. Müvafiq fəaliyyətin fərdi-hüquqi tənzimləmə qismində çıxış etməsi ilk növbədə bunun konkret fərdlər tərəfindən həyata keçirilməsi ilə əlaqədardır. Bununla yanaşı, fərdi-hüquqi tənzimləmə zamanı konkret bir ictimai hal tənzimlənir.

Normativ-hüquqi tənzimləmənin fərdi tənzimetməyə münasibətdə üstün duruma malik olmasına baxmayaraq, ictimai münasibətlərə effektiv təsir etmək üçün hüquqi tənzimləmənin yalnız normativ vasitələri kifayət

etmir. Bunun əsas səbəbi ondan ibarətdir ki, hüquq normaları yalnız hüquq münasibətləri subyektlərinin ümumi davranış qaydasını müəyyən edir. Bununla əlaqədar olaraq fərdi-hüquqi tənzimləməni tələb edən konkret hüquqi münasibətlərin bilavasitə nizamlanması üçün ümumi hüquq normalarının fərdiləşdirilməsinə zərurət yaranır.

Bütövlükdə fərdi-hüquqi tənzimləmə ayrı-ayrı qadağa və icazələr şəklində mövcud ictimai münasibətlərə fərdi qaydada təsir göstərən bir hüquqi təsirdir. Konkret qadağa və icazələr vasitələrlə aşağıdakı fərdi qaydalar təyin oluna bilər:

1) Konkret qayda. Bu halda hüquqi tənzimləmənin göstərilən hüquq tənzimləmə növlərindən birinə əsaslanan fərdi göstərişi dəqiq, birmənalı formulə edilir, konkret şəxsə (şəxslərə) ünvanlanır, davranış qaydası ciddi şəkildə təyin edilir və ondan heç bir kənara çıxmalara yol verilmir;

2) Alternativ qayda. Bu zaman fərdi göstərişlər halın nə cür inkişaf etməsindən asılı olaraq davranışın bir neçə variantını nəzərdə tutur;

3) Şərti qayda. Belə vəziyyətdə fərdi qadağa və ya fərdi icazəni ifadə edən fərdi göstəriş hüquq normasında və ya fərdi göstərişin özündə nəzərdə tutulan şərtin baş verməsindən sonra təsir göstərməyə başlayır.

Fərdi-hüquqi tənzimləmə müxtəlif hüquqi formalarda həyata keçirilir. Normayaratma formasında fərdi-hüquqi tənzimlənmə aşağıda göstərilən hallarda mümkündür:

- normativ hüquqi aktının mətnində fərdi göstərişlər mövcud olduqda;
- konkretləşdirici aktın dərci zamanı (konkretləşdirici akt özündə normativ göstərişlərlə yanaşı fərdi xarakterli göstərişləri də cəmləşdirir);
- presendent tənzimləmə halında.

Normativ-hüquqi və fərdi-hüquqi tənzimləmə, hüquqi tənzimləmənin iki növü kimi aşağıdakı ümumi xüsusiyyətlərə malikdir:

1) hər bir halda hüquq subyektləri arasındakı münasibətlər tənzimlənir;

2) hüquqi tənzimləmənin hər iki növü sosial tənzimləməyə əsaslanır;

3) normativ-hüquqi və fərdi-hüquqi tənzimləmə hüquqauyğun fəaliyyətdir;

4) həm normativ-hüquqi, həm də fərdi-hüquqi tənzimləmə iradi xarakterə malikdir. Əgər birinci halda tənzimləmə özünü qanunvericinin iradəsinin təzahürü kimi göstərilirsə, ikinci halda tənzimləmə hüquq tətbiqetmə subyektlərin iradəsinin təzahürü kimi çıxış edir.

Bununla belə, normativ-hüquqi və fərdi-hüquqi tənzimləmə arasında ciddi fərqlər də mövcuddur. İlk növbədə normativ və fərdi-hüquqi tənzimləmə müxtəlif hüquqi vasitələrlə yerinə yetirilir. Birinci halda normativ xarakterli vasitələrdən, ikinci halda isə fərdi xarakterli vasitələrdən istifadə olunur.

Bundan başqa, hüquqi tənzimləmə müxtəlif subyektlər tərəfindən irəli gəlir. Belə ki, normativ-hüquqi tənzimləmə normayaratma subyektləri tərəfindən həyata keçirilir. Fərdi-hüquqi tənzimləmənin subyektlər dairəsi isə daha genişdir. Bura fərdlər, təşkilatlar, dövlət orqanları, xüsusi səlahiyyətə malik olan vəzifəli şəxslər daxildir. Bir sıra hallarda həmin subyektlər normayaratma səlahiyyətinə malik olmadan belə normativ tənzimləmə hüdudlarında və əsasında fərdi qaydada konkret münasibətləri tənzimləmək imkanına malikdirlər.

Fərdi-hüquqi tənzimləməyə dair mövcud yanaşmaların təhlili fərdi-hüquqi tənzimləmənin əsas və əlavə əlamətlərini fərqləndirməyə imkan verir. Fərdi-hüquqi tənzimləmənin mütləq əlamətləri onun ayrılmaz hissələridir, onlardan hər hansı birisinin yoxluğunda təzahürün özü artıq olmur.

Əsas əlamətlərə, ilk növbədə, normativ və fərdi tənzimləmənin əvvəllər deyilən ümumi əlamətlərini aid etmək lazımdır. Bundan başqa onlara məhz hüquqi tənzimləmənin ayrılmaz hissələri aid edilir:

1)fərdi-hüquqi tənzimləmə normativ-hüquqi tənzimləməni tamamlayır, onun əsasında və inkişafında yerinə yetirilir;

2)fərdi-hüquqi tənzimləmə fərdi qaydada konkret halların tənzimlənməsinə yönəlmişdir;

3)fərdi-hüquqi tənzimləmə prosesində fərdi hüquqi aktlar yaradılır.

Fərdi-hüquqi tənzimləmənin fakültativ əlamətləri müəyyən şəraitdə mövcud ola bilər, lakin onların yoxluğunda fərdi-hüquqi tənzimləmə müstəqil hüquqi təzahür kimi qalır. Fərdi-hüquqi tənzimləmənin fakültativ əlamətlərinə aşağıdakıları aid etmək olar:

- subyektin öz mülahizələri əsasında hərəkət etmək imkanı;
- hüquqi boşluqların aradan qaldırılması məsələsinin yerinə yetirilməsi (qanunun və hüququn analogiyası yolu ilə boşluqların aradan qaldırılması);
- fərdi-hüquqi tənzimləmə prosedurunun möhkəmləndirilməsi.

Beləliklə, hüquqi tənzimləmənin müstəqil bir növü kimi fərdi-hüquqi tənzimləmə ictimai münasibətlərə göstərilən elə bir təsirdir ki, bu zaman onun iştirakçılarının fərdi qaydada hüquq və vəzifələri yaranır, dəyişdirilir

və ya ləğv edilir, hüquqi həlli tələb edən konkret halların tənzimlənməsinə yönələn normativ-hüquqi tənzimləməni üzvi surətdə tamamlayır, birtərəfli hüquqauyğun müqavilələrin bağlanılması yolu ilə ictimai münasibətlər tənzimləyir, yaxud səlahiyyətli orqan və ya vəzifəli şəxslərin fəaliyyəti nəticəsində fərdi hüquqi aktlar qəbul olunur.

Fərdi-hüquqi tənzimləmənin obyekti yalnız elə ictimai münasibətlər ola bilər ki, fərdi hüquqi vasitələrlə onları tənzimləmək mümkün olsun. Hüquqi tənzimləmə obyekti hüquqi tənzimləmənin hüdudlarını şərtləndirir. İndiyə kimi bu sahədəki tədqiqatların əksəriyyəti əsasən normativ-hüquqi tənzimləmənin hüdudlarının təhlilinə həsr olunmuşdur. Təəsüflə qeyd etmək lazımdır ki, fərdi-hüquqi tənzimləmə hüdudları barədə yalnız ayrı-ayrı mülahizələrə rast gəlinir.

Fərdi-hüquqi tənzimləmə hüdudlarının başlanğıc müddəaları kimi aşağıdakıları göstərmək olar:

1)fərdi-hüquqi tənzimləmənin hüdudları normativ-hüquqi tənzimləmənin hüdudları ilə şərtlənir;

2)fərdi-hüquqi tənzimləmə hüdudlarının əsası normativ səviyyədə təyin olunmasına baxmayaraq, o, bir sıra xüsusiyyətlərə malikdir və bunlar ilk növbədə fərdi-hüquqi tənzimləmənin mahiyyətindən irəli gəlir.

Beləliklə, fərdi-hüquqi tənzimləmənin hüdudları fərdi-hüquqi vasitələrlə ictimai münasibətlərə edilən hüquqi müdaxilənin hədlərini əhatə edir. Onlar əsasən normativ-hüquqi tənzimləmə hüdudları çərçivəsində movcuddur və sonuncular ilə şərtlənir.

Qeyd etmək lazımdır ki, obyektiv xarakterli hüdudlar normativ və fərdi-hüquqi tənzimləmə üçün eynidir. Fərdi-hüquqi tənzimləmənin subyektiv xarakterli hüdudları aşağıdakılardan asılıdır:

1)normayaratma fəaliyyətində iştirak edən orqanların iradəsindən;

2)fərdi-hüquqi tənzimləmə subyektinin iradəsindən.

Beləliklə, hüquq tətbiqetmə prosesinin nəticəsində baxılan konkret məsələnin (işin) hüquqi qiyməti verilir və buna dair müvafiq münasibəti əks etdirən xüsusi fərdi hüquqi akt qəbul edilir. Fərdi hüquqi akt hüquqi fakt qismində çıxış edərək hər bir halda müəyyən hüquqi nəticələr doğurur. O, aidiyyatı orqan və ya səlahiyyətli şəxs tərəfindən bunun üçün nəzərdə tutulmuş prosessual qaydada qəbul edilməli və bir sıra prosessual tələblərə cavab verməlidir.

**“Fərdi hüquqi aktın mahiyyəti və əlamətləri”** adlanan **üçüncü yarımfəsildə** qeyd olunur ki, sənədin fərdi hüquqi akt kimi nəzərdən keçirilməsi üçün o, aşağıdakı iki əlamətə malik olmalıdır:

1)fərdi hüquqi akt səlahiyyətli orqan tərəfindən ümumi qayda əsasında qəbul edilir;

2)fərdi hüquqi aktlar müəyyən prosedur qaydasında qəbul edilir.

Forma və ya məzmunun ayrı-ayrı elementləri ilə fərdi hüquqi aktlara bənzəyən bir çox rəsmi sənədlər mahiyyət etibarı ilə belə aktlardan kəskin şəkildə fərqlənirlər. Məsələn, müxtəlif arayışlar, etibarnamələr, qəbzlər, qaimələr, ödəmə sənədləri, diplomlar, attestatlar və s. Sonuncu növ sənədlər vətəndaşlarla təşkilatlar arasında, habelə vətəndaşların öz aralarında qarşılıqlı xidməti münasibətlərin texniki-əməliyyat vasitələri kimi çıxış edirlər.

Fərdi hüquqi aktın qəbul edilməsi prosesi iki mərhələdən keçir. Belə ki, birinci mərhələ (təşəbbüs mərhələsi) hüquqi aktın dərc olunması ideyasının yaranması ilə səciyyələnir. Həmin mərhələdə səlahiyyətli orqan tərəfindən aktın qəbul edilməsinin zəruriliyi əsaslandırılır (dəyişdirilmə, ləğv etmə), baxılan məsələ üzrə bütün informasiya (təlim-metodik materiallar, informasiya məktubları və s.) toplanılır və təhlil edilir. Bundan sonra ikinci mərhələdə bilavasitə fərdi hüquqi aktın mətni hazırlanır.

Fərdi hüquqi aktın göstərişləri ilk növbədə konkret şəxslərə şamil olunur. Ənənəvi olaraq aktın özündə onun adresatları bilavasitə göstərilir. Fərdi hüquqi aktın adresatı göstərilmədiyi halda və ya onu qəbul etmiş orqanı müəyyən etmək mümkün olmadıqda, o səmərəsiz hesab olunur. Adresat tərəfindən müvafiq vəzifələr yerinə yetirilmədikdə, fərdi hüquqi aktın icrası müvafiq orqanlar və vəzifəli şəxslər tərəfindən təmin olunur.

Fərdi hüquqi akt birtərəfli aktdır. Belə aktların qəbul edilməsindən əvvəl onların razılaşdırılması zərurəti ortaya çıxa bilər, yaxud onlar digər tərəfin, məsələn, vətəndaşın təşəbbüsü (ov üçün icazə, işə qəbul üçün ərizə və s.) əsasında qəbul edilə bilərlər. Lakin, fərdi hüquqi aktın qəbulu zamanı səlahiyyətli orqan həmişə birtərəfli qaydada hərəkət edir.

Aktda ifadə olunmuş konkret təsir metodların mahiyyəti hökmlü və birtərəfli olması ilə xarakterizə edilir. Belə metodlar hələ məcburetmə deyildir. Bu yalnız müəyyən məsələlərin həllinin səlahiyyətli üsuludur.

Fərdi hüquqi aktların birtərəfli xarakteri bu hüquqi aktların məcburiliyi ilə sıx əlaqədədir, onu müəyyən edir, onun vacib şərti və təminatıdır. Fərdi hüquqi aktların məcburiliyinin spesifikliyi ondan ibarətdir ki, abstrakt şəxslər üçün məcburi olan hüquq normasından fərqli olaraq fərdi hüquqi aktlar konkret, şəxsən müəyyən edilmiş şəxslər üçün məcburidir. Onlar ünvalananlar üçün məcburi olaraq qəbul edilməlidir. Adresatlar aktın məcburiliyini qiymətləndirmək, ondan imtina etmək, belə

aktı yalnız qismən yerinə yetirmək hüququna malik deyillər. Burada, həmçinin, onu həyata keçirən orqan üçün məcburi olmasını da qeyd etmək lazımdır. Səlahiyyətli orqanlar öz aktlarını ləğv və ya dəyişdirə bilərlər. Lakin əgər akt qəbul edilmiş qaydada dəyişdirilməyib və ləğv edilməyibsə, həmin orqan üçün məcburi əhəmiyyətə malikdir.

Fərdi hüquqi aktların məcburiliyi onların yerinə yetirilməməsi və ya lazımi səviyyədə icra edilməməsinə görə sanksiyalarla məcburi tətbiq edilməsi prosedurunun tətbiqi ilə təmin edilir.

Beləliklə, fərdi hüquqi akt anlayışının müəyyən edilməsinin əsasında ilk növbədə müvafiq subyektin birtərəfli iradi hərəkəti durur. Bütün fərdi hüquqi aktların ümumi məqsədi hüquq subyektlərinə tənzimləyici təsir göstərməkdən ibarətdir. Hər bir fərdi hüquqi aktın konkret məqsədi qismində konkret halın həlli və hüquq normasının realizəsinin təmin edilməsi çıxış edir. Məhz sonuncu qəbul olunan qərarların dairəsini müəyyən edir, konkret qərarın formalaşmasına həlledici təsir göstərir.

Fərdi hüquqi aktların əsas və müəyyənedici xüsusiyyəti onların şəxsləndirilmiş xarakterə malik olmasıdır. Hüquqi aktın fərdi xarakterindən danışdıqda adətən onun yalnız baxılan konkret məsələyə aid olması, ayrıca subyektə münasibətdə fərdi müəyyən edilmiş məsələnin birdəfəli icazəsi, onun göstərişlərinin icra edilməsindən sonra aktın qüvvədən düşməsi və s. nəzərdə tutulur.

Normativ hüquqi aktlardan fərqli olaraq fərdi hüquqi aktlar hüquq mənbəyi hesab olunmur, çünki yeni ümumi normalar yaratmır, dəyişdirmir və ya ləğv etmir. Fərdi hüquqi aktın bir konkret münasibətə yönəldiyi halda normativ hüquqi aktla nümunəvi münasibətlərin növü tənzimlənir.

**Dördüncü yarımfəsil "Fərdi hüquqi aktın strukturu"** adlanır. Burada göstərilir ki, hüquqi aktların hazırlanması mərhələsində "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 53-cü maddəsində hüquqi aktın mətninə dair irəli sürülən linqvistik tələblərə xüsusi diqqət yetirmək lazımdır. Belə ki, hər bir hüquqi aktın mətni lakonik formada, normaların ziddiyyətli təfsirini istisna edən sadə və aydın dildə, Azərbaycan ədəbi dilinin və hüquq terminologiyasının rəsmi-işgüzar üslubuna əməl etməklə tərtib edilməldir. Dissertasiya işinin bu hissəsində fərdi hüquqi aktın iki hissədən (şərh və sərəncamverici) ibarət olması qeyd olunur. Əgər fərdi hüquqi aktın qəbulu üçün hüquqi əsas qismində qanun və ya qanunqüvvəli normativ hüquqi akt, yaxud həmin təşkilat tərəfindən əvvəllər qəbul edilmiş sənəd çıxış edirsə, belə halda onun şərh hissəsində müvafiq hüquqi aktın adı, tarixi, nömrəsi göstərilir.

Əgər fərdi hüquqi akt ümumi qaydada qəbul olunursa, yəni icrası həvalə edilmiş funksiya və məsələlərin yerinə yetirilməsi ilə əlaqədar qəbul edilirsə, onda onun şərh hissəsində nəzərdə tutulan tədbirlərin məqsədi formulə edilir, həmin aktın qəbuluna səbəb olan fakt və ya hadisələr göstərilir.

Fərdi hüquqi aktın şərh hissəsi sərəncam hissəsindən "əmr edirəm" sözü ilə ayrılır. Bu zaman fərdi hüquqi aktın hər iki hissəsi daxilən uzlaşdırılmalı, məntiqli qurulmalıdır. Əgər fərdi hüquqi aktla nəzərdə tutulan tədbirlərin izah edilməsi və ya əsaslandırılmasına ehtiyac yoxdursa, fərdi hüquqi aktın şərh hissəsi olmaya da bilər.

Dissertasiya işinin iki yarımfəsildən ibarət **ikinci fəsli "Azərbaycan Respublikasında fərdi hüquqi aktların formaları və növləri"** adlanır.

İkinci fəslin **birinci yarımfəslində "Fərdi hüquqi aktların təsnifatı problemi"** tədqiq olunur. Fərdi hüquqi aktların təsnifatı həm elmi, həm də praktiki əhəmiyyətə malikdir. Təsnifat əsasında hüquqi aktların hazırlanması, qəbulu və icrası zamanı buraxılan əsas səhvlərin və pozuntuların ardıcıl olaraq aradan qaldırılması üçün konkret tədbirlərin görülməsi üçün şərait yaradılır. Lakin təsnifatın aparılması bütün fərdi hüquqi aktları əhatə etməlidir. Təsnifat qarşısında qoyulan digər tələb təsnif edilən hadisənin daha əhəmiyyətli əlamətlərini özündə əks etdirən meyarın irəli sürülməsidir.

Qeyd olunur ki, fərdi hüquqi aktlarının vahid təsnifatı aşağıdakı qaydalara riayət edilməklə aparılmalıdır:

1)hər bir bölgü eyni əsaslarla aparılmalıdır;

2)təsnifat üzvlərinin həcmi təsnifləşdirilən sinfin həcminə bərabər olmalıdır;

3)təsnifatın ayrı-ayrı üzvləri qarşılıqlı şəkildə bir-birini istisna etməlidir;

4)təsnifat məntiqi əsaslar üzrə aparılmalıdır.

Hüquq normaları kimi, fərdi hüquqi aktlar onlarda əks olunan göstərişlərin xarakterinə görə məcburedici, qadağanedici və ya səlahəyyətverici olurlar. Belə ki, məcburedici fərdi hüquqi aktlar ünvanlanan subyektlərə müəyyən hərəkətlərin yerinə yetirilməsi barədə göstərişlər ehtiva edirlər. Məcburedici fərdi hüquqi aktlar sırasına icra hakimiyyəti orqanlarının operativ fəaliyyətinə aid olan, vəsaitin tutulması barədə məhkəmə qərarları, cəzanın çəkilməsi üçün cəzaçəkmə müəssisəsinə göndərilməsi barədə məhkəmə hökmü və s. aktların əksəriyyəti daxildir.

Qadağanedici fərdi hüquqi aktlar prinsip etibarilə məcburedici aktlara yaxındır, çünki qadağa müəyyən hərəkətləri etməməyi nəzərdə tutan vəzifədir. Lakin, məhz bu göstərilən davranışın passiv xarakterinə görə qadağanedici aktları məcburedici aktlardan ayırmaq mümkündür. Belə akt nümunələri kimi müxtəlif müfəttişliklərin (yanğın mühafizəsi, sanitar-epidemioloji xidmət, əmək müfəttişliyi və s.) qərarlarını göstərmək olar. Həmin qərarlar müvafiq qaydaların pozulması hallarında müəssisə və qurğuların istismarına və ya tikintisinə qadağa qoyur, məhkum olunanlara müəyyən vəzifələri tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmağı qadağan edir və s.

Səlahiyyətverici fərdi hüquqi aktların əsas məzmununu vətəndaş və təşkilatlara müəyyən hüquqların verilməsi təşkil edir. Müvafiq normalarla analoji olaraq belə aktlarda ifadə olunan göstərişlər "əmrlər" kimi şərh edilə bilər və aidiyyəti orqanlara ünvanlanırlar. Həmin orqanlar bu normalarda təsbit edilmiş hüquqları qorumalı, müvafiq hüquqi göstərişlərin həyata keçirilməsini təmin etməlidirlər. Səlahiyyətverici fərdi hüquqi aktlar arasında elə aktları göstərmək olar ki, onların əsasında həmin adresatlarda yeni hüquqlar (səlahiyyətlər) yaranır. Bunlar maddi və maliyyə ehtiyatların bölüşdürülməsinə, yaşayış sahəsinin təqdim edilməsinə, təltif edilməsinə, mükafatlandırılmasına dair aktlardır.

Fərdi hüquqi aktların ayrıca qrupunu təsdiqedici aktlar təşkil edir. Onlar hüquqi əhəmiyyət kəsb edən faktları və halları (qeydiyyat aktları, hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi barədə məhkəmə qərarları və s.) əks edirlər. Belə aktların əsasında bəzi hallarda məcburedici, digər hallarda isə təsdiqedici normalar durur. Belə ki, hüquqi əhəmiyyət kəsb edən faktların təsdiq edilməsi müvafiq şəxslərin müəyyən davranışı üçün imkanlar yaradır.

Fərdi hüquqi aktları bütövlükdə həmçinin aşağıdakı iki böyük qrupa bölmək olar:

1)şəxsin hüquq və azadlıqlarının müdafiəsi daxil olmaqla hüquqi mübahisənin həlli və hüquq qaydasının qorunması ilə əlaqədar qəbul olunan aktlar;

2)aidiyyəti orqanların gündəlik icra-sərəncamverici fəaliyyəti çərçivəsində qəbul edilən aktlar.

Fərdi hüquqi aktların təsnifatına dair hüquq nəzəriyyəsinin nailiyyətləri nəzərə alınmaqla dissertasiya işində fərdi hüquqi aktların aşağıdakı təsnifatına üstünlük verilir:

1)Normayaratma xarakterli fərdi aktlar. Normayaratma xarakterli

fərdi aktların növü kimi akt-presedentlər çıxış edir.

2)Hüquq və səlahiyyətlərin realizəsi üzrə fərdi aktlar. Bura birtərəfli aktlar, müqavilə-fərdi aktlar və hüquq tətbiqetmə aktları daxildir. Birtətəfli aktlar müstəqil fərdi-hüquqi tənzimləmənin nəticəsidir və o, digər şəxslərin iradəsindən asılı olmayaraq hüquqauyğun hərəkətlərin yerinə yetirilməsi ilə həyata keçirilir (məsələn, birtərəfli əqdlərin yerinə yetirilməsi).

3)Təfsir aktları. Fərdi hüquqi aktda şərh vermək imkanı səlahiyyətli orqanın fəaliyyətinin mahiyyətindən irəli gəlir. Aidiyyəti dövlət orqanı müvafiq normativ hüquqi aktın icrasını təmin etmək məqsədilə konkret hadisənin hüquqi qaydaya salınması üçün fərdi hüquqi aktda ifadə olunan göstərişi şərh vermək səlahiyyətinə malikdir.

İkinci fəslin **ikinci yarımfəsli "Azərbaycan Respublikası icra hakimiyyəti orqanlarının fərdi hüquqi aktları"**na həsr olunub. Göstərilən orqanlar tərəfindən fərdi hüquqi aktlar dövlət fəaliyyətinin spesifik növü olan icra və sərəncamverici fəaliyyət çərçivəsində normativ hüquqi aktlar əsasında və onların realizəsi məqsədilə qəbul edilir. Müvafiq fəaliyyət hüquqi və qeyri-hüquqi formalarda həyata keçirilir. Cari qanunvericilikdə aidiyyəti orqanlar tərəfindən normativ hüquqi aktların konkret hallara dair tətbiqi ilə bağlı qəbul olunan fərdi hüquqi aktlar həmçinin inzibati aktlar adlanır. Qeyri-hüquqi fəaliyyət formalarının (maddi-texniki və təşkilati işlər) həyata keçirilməsi zamanı icra hakimiyyəti orqanları tərəfindən hüquqi aktların qəbuluna ehtiyac olmur.

Beləliklə, müvafiq orqanların hüquqi fəaliyyət formalarına normayaratma və hüquq tətbiqetmə daxildir. Məhz bu zaman onların dövlət-hökmran xarakterli səlahiyyətləri öz hüquqi ifadəsini tapır. Şübhəsiz, hüququn tətbiqi icra-sərəncamverici fəaliyyətin mahiyyətini ifadə edir, onun əsas və müəyyənləşdirici istiqamətidir. Praktiki olaraq icra-sərəncamverici fəaliyyət özünü bariz şəkildə məhz fərdi hüquqi aktların qəbul edilməsində büruzə verir.

İcra-sərəncamverici fəaliyyətin hüquq tətbiqetmə xarakterinin tanınmaması faktiki olaraq icra hakimiyyəti orqanının fəaliyyətinin hüquqi əhəmiyyətinin, onun konkret hüquqi münasibətlərin yaranmasına, dəyişdirilməsinə, başa çatdırılmasına yönəldilməsinin, istənilən fərdi hüquqi aktın hüquqi təbiətə malik olmasının inkar edilməsi deməkdir.

İcra hakimiyyəti orqanlarının fərdi hüquqi aktlarının hüquq tətbiqetmə xarakterini inkar edən mülahizələr onların spesifikliyinin kifayət qədər dəqiq izah edilməməsi ilə əlaqədardır. İcra hakimiyyəti orqanlarının hüquq tətbiqetmə fəaliyyətinin ümumi təyinatı ondan ibarətdir ki, o, əsasən

ümumi normativ tənzimləməni davam etdirilməsi üçün nəzərdə tutulmuşdur. Bu zaman konkret şərait çərçivəsində hüquq subyektlərinin hüquq və vəzifələrinin hüdudlarının dəqiqləşdirilməsini ifadə edən fərdi-hüquqi tənzimləməyə ehtiyac yaranır.

İcra hakimiyyəti orqanlarının fərdi hüquqi aktları məcburi olan şəxslər dairəsi əsas seçilmiş təsnifat mühüm əhəmiyyətə malikdir. Həmin əsasa görə daxili və xarici fərdi hüquqi aktları fərqləndirmək lazımdır. Birinci halda daxili fərdi hüquqi aktları qəbul edən subyekt heç bir kənar şəxs və ya təşkilatla hüquq münasibətlərinə daxil olmur. Bununla yanaşı icra hakimiyyəti orqanlarının fərdi hüquqi aktlarının kifayət qədər xeyli qrupu spesifikliyi ilə özünə diqqət cəlb edir və onları şərti olaraq "xarici" aktlar adlandırmaq olar.

Fərdi hüquqi aktlar sırasında elə aktlar var ki, onlara dair qanunvericilikdə birbaşa olaraq onları qəbuletmə hüququna malik olan subyektin rekvizitləri göstərilməklə yazılı forma, qəbul və icra qaydası da nəzərdə tutulur. Belə ki, qərarların əksəriyyəti kollegial orqanlar tərəfindən qəbul olunur. Lakin, cari qanunvericilik qərarların ayrı-ayrı şəxslər tərəfindən də qəbul edilməsi imkanını nəzərdə tutur (məsələn, inzibati xətaya görə inzibati məsuliyyətə cəlb etmə və ya inzibati məsuliyyətdən azad etmə barədə müvafiq vəzifəli şəxslərin qərarları).

Mövcud qanunvericiliyin və icra hakimiyyəti orqanlarının praktikasının təhlili sübut edir ki, əmlər daha geniş yayılmış və hüquqi, xüsusən də fərdi hüquqi aktların tez-tez rast gəlinən formasıdır. Qeyd etmək lazımdır ki, bir çox icra orqanları, vəzifəli şəxslər üçün (müəssisənin, elmi-tədqiqat institutunun və s. direktoru) əmr – qüvvədə olan qanunvericiliklə ona təsbit edilmiş formadır. Onlar qəbul etdikləri aktları həmin formaya salmalıdırlar.

İcra hakimiyyəti orqanlarının hüquqi aktları qüvvədə olma müddətinə görə qeyri-müəyyən müddətli (müddətsiz), müddətli və müvəqqəti aktlara bölünür. İcra hakimiyyəti orqanının aktında qüvvədə olma müddəti göstərilmədikdə, o, ləğv edilənə kimi, yəni müddətsiz qüvvədə olur. İdarəetmə aktında qüvvədə olma müddəti göstərildikdə isə, həmin müddət başa çatdıqdan sonra akt qüvvəsini itirir. Bu cür aktlar müddətli hesab olunur. Müvəqqəti aktlar bir qayda olaraq qeyri-müəyyən, lakin uzun sürməyən müddət ərzində qüvvədə olur. Belə aktların adlarında onların müvəqqəti olması göstərilir.

Fərdi hüquqi aktlar onları qəbul edən icra hakimiyyəti orqanların səlahiyyətlərinin xarakterinə görə ümumi, sahələrarası və sahə aktlarına

bölünür. Ümumi xarakterli aktlar ümumi səlahiyyət orqanları tərəfindən (Azərbaycan Respublikasının Nazirlər Kabineti) qəbul edilir və sahələrarası və sahə idarəetmə aktları ilə müqayisədə daha böyük hüquqi qüvvəyə malikdirlər. Sahələrarası aktlar müvafiq səlahiyyətlərə malik icra orqanları tərəfindən qəbul edilir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və s.). Həmin aktların tabeçiliyindən asılı olmayaraq bütün nazirliklər, təsisatlar, orqan və təşkilatlar, vəzifəli şəxslər, həmçinin vətəndaşlar tərəfindən icrası məcburidir. Sahə xarakterli aktlar müəyyən idarəetmə sahəsi daxilində ictimai münasibətləri tənzimləyir və işləri həll edir. Belə aktları nazirlər, dövlət komitələrinin sədrləri, xidmət, idarəetmə, şöbə rəhbərləri və s. qəbul edirlər.

Dissertasiya işinin üç yarımfəsildən ibarət **üçüncü fəslində "Azərbaycan Respublikasında fərdi məhkəmə aktları və təkmil fərdi hüquqi aktların tərtibi problemi araşdırılır.**

Bu fəslin **"Fərdi məhkəmə aktlarının səciyyəvi cəhətləri"** adlanan **birinci yarımfəslində** qeyd olunur ki, fərdi hüquqi aktlar sırasında məhkəmə aktları mühüm yer tutur. Bu məhkəmə orqanlarının hüquqi aktlarının xüsusi statusu, habelə onların dövlət mexanizmində artan rolu ilə şərtlənir. Bunun göstəricisi kimi son illər məhkəmə müdafiəsi ilə bağlı vətəndaşların müraciətlərinin xeyli çoxalması və bununla əlaqədar müvafiq məhkəmə aktlarının sayının artmasıdır. Bu zaman qəbul edilən fərdi hüquqi aktlar vasitəsilə məhkəmələr normativ hüquqi aktların göstərişlərini bir çox cəhətdən inkişaf etdirirlər.

Məhkəmə aktlarının yüksək hüquq düşüncəli şəxslər tərəfindən qəbul edilməsi həmin aktların təkmil olmasına həlledici təsir göstərir. Məhkəmə aktı daha keyfiyyətli, təkmil olması üçün o, kamil, yüksək inkişaf etmiş hüquq düşüncəsinə əsaslanmalıdır. Ona görə də yüksək səviyyəli hüquq mədəniyyəti və hüquq düşüncəsi ilk növbədə hakimlərə aiddir və bu onlar tərəfindən çıxarılan qərarların ədalətli olmasını şərtləndirir.

Məhkəmə aktları məhkəmə hüquq siyasətinin həyata keçirilməsinin vacib vasitəsidir. Məhkəmə siyasəti yalnız hakimlər tərəfindən deyil, həmçinin digər subyektlər (məsələn, Prezident, parlament və s.) tərəfindən də həyata keçirilə bilər. Bununla yanaşı, məhkəmə siyasətinin həyata keçirilməsi zamanı müvafiq subyektlər hüquqi vasitələrlə yanaşı maliyyə, təşkilati və s. vasitələrdən də istifadə etmək imkanına malikdirlər. Baxılan vəziyyət məhkəmə hüquq siyasətini məhkəmə siyasətindən ayırmağa əsas

verir.

Məhkəmə hüquq siyasəti məhkəmə siyasətindən fərqli olaraq daha geniş anlayışdır. O, ikinci anlayışdan onu formalaşdıran və həyata keçirən subyektlərin çoxluğu ilə fərqlənir, məzmunca daha zəngindir, realizə formalarına görə daha genişdir.

Məhkəmə aktlarının təsnifatı müxtəlif meyarlara görə verilir. Belə ki, məhkəmə aktlarının bölgüsünü sahəvi mənsubiyyətə, aktın formasına, məhkəmənin tutduğu yerə, hüquqi məlumatın çatdırılma məqsədinə, hüquqi əlamətlərə, hüquqi əhəmiyyətə və s. əsaslar üzrə aparmaq olar. Praktiki baxımdan hüquqi əhəmiyyətə görə məhkəmə aktlarının aşağıdakı növlərə ayrılması məqsədəmüvafiq hesab edilir:

1)məhkəmə normayaratma aktları;
2)məhkəmə hüquq tətbiqetmə aktları;
3)məhkəmə şərh aktları.

Məhkəmə aktları həm hərəkət, həm də sənəd kimi çıxış edir. Belə ki, hərəkət kimi onlar daxili və xarici xüsusiyyətlərə malikdir. Daxili xüsusiyyətlər özünü onda göstərir ki, məhkəmə intellektual-iradi hərəkətlər edir, hüquqi göstərişlərin məzmununu müəyyənləşdirir, faktiki halların tövsifini verir və müvafiq qərar çıxarır. Zahiri xüsusiyyətlər isə məhkəmənin faktiki hərəkətlərində təzahür edir. Bunlar onun intellektual-iradi hərəkətlərinin obyektivləşdirilməsinə yönəlir.

Üçüncü fəslin **ikinci yarımfəsli "Azərbaycan Respublikasında fərdi məhkəmə aktlarının növləri"** adlanır. Burada ilk əvvəl qeyd olunur ki, məhkəmə aktı müəyyən struktura malikdir və xüsusi prosessual formada qəbul olunur. Məhkəmələr tərəfindən qəbul olunan fərdi hüquqi aktlar ən təkmil hüquq tətbiqetmə aktlar sırasına daxildir və öz dəqiq strukturu ilə səciyyələnir. Bunun səbəbi kimi onların forma və məzmununun vəhdəti çıxış edir. Baxılan məsələnin xarakterindən asılı olaraq bu növ hüquqi aktlar aşağıdakı hissələrdən ibarətdir:

- giriş hissəsi. Burada hüquq tətbiqetmə aktın adı, tarixi və qəbuletmə yeri, məhkəmə orqanının (vəzifəli şəxsin) adı, işin adı və işdə iştirak edən şəxslərin adları əks olunur.
- təsviri hissə. Məhkəmə aktının təsviri hissəsində əsasən işin faktiki halları, habelə işin müvafiq məhkəmədə baxılmasına əsas verən müddəalar yer alır.
- əsaslandırıcı hissə. Bu hissədə aktı qəbul edən məhkəmə orqanının dəlilləri, tərəflərin ifadələrini təsdiq və ya inkar edən, habelə qəbul edilən aktın xeyrinə olan dəlillər bildirilir.

- nəticəvi hissə. Məhkəmə aktının yekun struktur bölməsi olaraq nəticəvi hissə imperativ şəkildə məhkəmə orqanının baxılmış iş üzrə nəticələrini əks edir. Burada həmçinin qərarın məcburi icrası, onun yenidən baxılması və ya qəti olması barədə müddəalar, hüquqi qüvvəyə minməsi və s. digər məsələlər öz həllini tapır.

Dissertasiya işinin bu bölməsində həmçinin qeyd olunur ki, məhkəmə aktlarının növləri kifayət qədər çoxsaylıdır və aşağıdakı növ məhkəmə aktları göstərilir:

1)əsas məhkəmə aktları. Əsas məhkəmə aktları qismində məhkəmə qərarı (qətnaməsi) və hökmü çıxış edirlər. Onların xüsusi rolu müvafiq hüquqi halın mahiyyəti üzrə həll olunması ilə şərtlənir;

2)köməkçı məhkəmə aktları. Koməkçı məhkəmə aktları müxtəlif məhkəmə hərəkətlərini təmin edirlər. Bunlar hüquqi işin baxışı zamanı məhkəmənin ayrı-ayrı məsələlər (məsələn, işin təxirə salınması, məhkəmə icraatına xitam verilməsi) üzrə mülahizələrini əks edirlər;

3)əlavə məhkəmə aktları. Əlavə məhkəmə aktları (məhkəmə iclaslarının protokolları) məhkəmə icraatının prosedur məsələlərini, onun gedişatını təsbit edirlər. Bu məhkəmə aktlarının əhəmiyyətinin inkar edilməsi üçün əsaslar yoxdur. Çünki bəzən baxılan işin nəticəsinə bilavasitə təsir edən məlumatlar bu növ aktların mətnində yer ala bilər.

Üçüncü fəslin **üçüncü yarımfəsli "Təkmil fərdi hüquqi aktların tərtibi problemi"** adlanır. Burada qeyd olunur ki, fərdi hüquqi aktların hazırlanması və qəbulu aşağıdakı ümumi tələblərə cavab verməlidir:

- aktı qəbul edən subyektin müvafiq səlahiyyətə malik olmalıdır;
- aktın məzmununun subyektin səlahiyyətlərinin həcminə uyğun olmalıdır;
- aktın forması (növü) düzgün seçilməlidir;
- hüquqi aktın hazırlanması, qəbulu və qanuni qüvvəyə minməsi təyin edilmiş qaydalar əsasında olmalıdır.

Fərdi hüquqi aktın hazırlanması mərhələsində aşağıdakılar rəhbər tutulmalıdır:

- hüquqi tənzimləmə üçün həqiqi ehtiyacın olub-olmamasının dəqiqləşdirilməsi;
- hüquqi aktın qəbulu ilə nail olunacaq məqsədlərin müəyyənləşdirilməsi;
- nəzərdə tutulan davranış qaydalarına zidd olan hərəkətlərə görə hansı sanksiyanın məqsədəuyğunluğunun təyin edilməsi;
- mövcud hüquqi aktları təhlil etmək, onların tətbiqi ilə bağlı

təcrübənin öyrənilməsi;

- hazırlanan hüquqi aktın realizəsi ilə əlaqədar gələcəkdə sərf olunacaq maddi, maliyyə və s. resursların nəzərə alınması;
- qəbul olunacaq hüquqi aktın mümkün iqtisadi, sosial, ekoloji və s. təsirinə diqqətin yetirilməsi və s.

Dissertasiya işində həmçinin fərdi hüquqi aktların qəbulu zamanı onların mətninə dair əsas tələblərin də nəzərə alınmasının vacibliyi qeyd olunur. Bunların sırasına aşağıdakılar daxildir:

- göstərişin konkretliyi;
- mətnin məntiqli ifadəsi;
- kolliziyaların olmaması;
- mətnin mümkün qədər qısaca ifadəsi;
- ifadələrin, terminlərin dəqiqliyi;
- hüquqi texnikaya dair qaydaların nəzərə alınması.

Fərdi hüquqi aktların mətnində qüsurların qarşısını almaq məqsədilə hər bir hüquq tətbiqetmə subyekti fərdi hüquqi aktların qəbulu üzrə tutarlı tədbirlər görməlidir. Fərdi hüquqi aktların hazırlanması və qəbulu bir sıra əlaqəli hərəkətlərin edilməsini nəzərdə tutur və hüquqi texnikanın üsullarının tətbiqindən ibarətdir.

Fərdi hüquqi aktların qəbulu anında qarşıda duran başlıca vəzifə bütün dövlət orqanları, hüquqi və fiziki şəxslər tərəfindən hüququn realizasiyasının səmərəliliyinin yüksəldilməsinə kömək etməkdən ibarətdir. Bu baxımdan həmin aktları qəbul edən subyektlərə müvafiq qanunvericilik aktları ilə bir sıra təşkilati funksiyalar həvalə edilir. Göstərilən funksiyaların yerinə yetirilməsi qanunçuluğun möhkəmləndirilməsi, habelə fərdi hüquqi aktların səmərəliliyinin yüksəldilməsi işinə kömək edir. Bununla yanaşı, fərdi hüquqi aktları qəbul edən subyektlərin özlərinin fəaliyyəti də zəruri təşkilati səviyyədə qurulmalıdır. Bu istiqamətdə aparılan işin əsas istiqamətini səlahiyyətli orqanların işçilərinin mənəvi və peşə keyfiyyətlərinin yüksəldilməsi, onlara qarşı tələbkarlığın artırılması, dövlət qulluğuna qəbul zamanı şəffaflığın təmin edilməsi və s. bu kimi təşkilati tədbirlər təşkil etməlidir.

Nəhayət, dissertasiya işinin ***nəticə*** hissəsində bəzi tövsiyələr verilir.

**Dissertasiya tədqiqatının əsas müddəaları müəllif tərəfindən çap etdirilmiş aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:**

1)Hüquqi aktlar və onların növləri // Bakı Dövlət Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, 2014, № 4, səh. 38-47.

2)К понятию правовых актов // Евразийский юридический журнал, 2015, № 3, с. 166-167.

3)Fərdi hüquqi akt ictimai münasibətlərin tənzimlənmə forması kimi // Qanun, 2015, № 07 (249), səh.15-23.

4)İcra hakimiyyəti orqanlarının fərdi hüquqi aktları // Bakı Dövlət Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, 2015, № 1, səh.56-59.

5)Fərdi hüquqi aktın strukturu / Ailə-məişət zorakılığının sosial-psixoloji, cinayət-hüquqi və kriminoloji problemləri. Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2016, səh. 341-344.

6)Azərbaycan Respublikasında fərdi məhkəmə aktlarının növləri // Bakı Dövlət Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, 2016, № 4, səh. 21-27.

7)Məhkəmə aktlarının səciyyəvi cəhətləri // Polis Akademiyasının Elmi Xəbərləri, 2017, № 1-2(17), səh. 103-108.

# РЕЗЮМЕ

Диссертационная работа Улькер Байрам гызы Юсифовой на тему «Правовая природа и виды индивидуальных правовых актов», представленная на соискание ученой степени доктора философии по праву по специальности 5606.01- Теория и история государства и права; история учений о праве и государстве, является первой монографической работой, посвященной исследованию вопросов сущности и особенностей индивидуальных правовых актов.

Диссертационная работа состоит из введения, трех глав, включающих в себя девять параграфов, заключения и списка литературы.

Во введении обоснована актуальность темы исследования, определены цели и задачи работы, ее теоретическая и практическая значимость, степень разработанности указанной проблемы, показана научная новизна диссертации, сформулированы выносимые на защиту основные положения.

Первая глава диссертации – «Теоретические вопросы индивидуальных правовых актов» – состоит из четырех параграфов, где отмечается, что в отличие от положений нормативных правовых актов, имеющих общий характер, предписания индивидуальных правовых актов характеризуются своей конкретностью. Индивидуальные правовые акты носят разовый, индивидуально-определенный характер и принимаются в основном по организационно-распорядительным вопросам.

Вторая глава диссертации – «Формы и виды индивидуальных правовых актов в Азербайджанской Республике» – состоит из двух параграфов, в которых рассматриваются признаки правовых актов, а также критерии разграничения нормативных и индивидуальных правовых актов. Проводится четкая научная дифференциация правовых актов, которая обусловлена не только необходимостью систематизации правовых актов, но и задачами точного определения характерных признаков нормативных и ненормативных (индивидуальных) правовых актов.

Третья глава диссертации – «Судебные индивидуально-правовые акты и проблема подготовки совершенных индивидуально-правовых актов в Азербайджанской Республике» – состоит из трех параграфов и посвящена вопросам отграничения судебных актов от иных видов нидивидуальных правовых актов. В этой связи подробно рассматрены основные признаки судебных актов.

В заключении диссертации представлены полученные в ходе исследования важные выводы и рекомендации.

**SUMMARY**

The theses of Ulkar Bayram gizi Yusifova on the theme of "Legal nature and the types of the individual legal bill of indictments" submitted for a philosophical doctor's degree on law by the specialty of 5606.01- the theory and history of state and law; the history of teaching on law and state is the first monographical work dedicated to the research of the problems of the essence and the peculiarities of individual legal bill of indictments.

The theses is consisting of an introduction, three chapters including, nine paragraphs, a conclusion and the list of referenced books.

In introduction being based the actuality of the topic of research, as well as the aim and task of the work, its theoretical and practical significance, level of working out of this problem, shown scientific novelty of the thesis and was formed primary propositions moved to defence.

The first chapter of the thesis called "The theoretical problems of the individual legal bill of indictments" is consisting of four paragraphs, where pointed out that in contrast to the regulations of normative legal bill of indictments having common character, orders of the individual legal bill of indictments being characterized by their own specificity or concreteness. Individual legal bill of indictments carry out once-only, individually-definite character and mainly accepted by organizationally – administrative questions.

The second chapter called "The forms and types of individually legal bill of indictments in the Republic of Azerbaijan" is consisting of two paragraphs, where considered the signs of legal bill of indictments, and as well as the criteria of differentiation of normative and the individual legal bill of indictments. There done clear scientific differentiation of legal bill of indictments, which were conditioned not only with the purpose of systematization of legal bill of indictments, but with the tasks of a precise determination of characteristic signs of normative and abnormative (individual) legal bill of indictments.

The 3rd chapter called "Judicially individual legal bill of indictments and the problem of preparing committed individually– legal -bill of indictments in the Republic of Azerbaijan" is consisting of three paragraphs and is dedicated to the problems of delimitation of the legal bill of indictments from other types of individual legal bill of indictments. And in this sphere done main signs of individual legal bill of indictments.

In the end of the theses done all the main deductions and recommendations obtained in the course of this research

**Çapa imzalanmışdır 25.05.2017**
**Kağız formatı 60 x 84  1/16.**
**Tiraj 100.**
**"Səda"  nəşriyyatında çap olunub**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**УЛЬКЕР БАЙРАМ гызы ЮСИФОВА**

# ПРАВОВАЯ ПРИРОДА И ВИДЫ ИНДИВИДУАЛЬНЫХ ПРАВОВЫХ АКТОВ

**Специальность: 5606.01– Теория и история государства и права; история учений о праве и государстве**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по праву**

**Баку – 2017**

2,27,4,25,6,23,8,21,10,19,12,17,14,15

28,1,26,3,24,5,22,7,20,9,18,11,16,13